# Şuşa dünyanın ən gözəl şəhərlərindən biri olacaq



***Prezident İlham Əliyev və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva növbəti dəfə Şuşada olmuş, bir sira tədbirlərdə iştirak etmişlər. Dövlət başçısı və birinci xanım Vaqif Poeziya Günlərində, Bülbülün ev muzeyinin açılışında, sərgilərdə iştirak etmiş, Şuşanın gözəlləşməkdə olan abhavasına yeni çalarlar qatmışlar. Dövlət başçımızın bu səfərini televiziya vasitəsilə izlədikcə işğaldan əvvəl Şuşada olduğum anları bir daha xatırladım.***

Bu şəhərin əsrarəngiz gözəlliyi insanı, həqiqətən, məftun edirdi. Dahi Üzeyir bəyin, Bülbülün, Natəvanın ev muzeylərinə, buradakı məscidlərə baş çəkməmiş Şuşanı tərk etməzdim. Biz Qubadlı – Laçın yolu ilə Şuşaya gələrdik. Yolüstü Turşsuda dayanardıq. Buradan da Şuşaya qalxardıq. Yaz aylarından birində Şuşaya qalxanda təpənin üstündə xeyli insan toplandığını gördük. Soruşduq ki, nə edirsiniz? Dedilər ki, indilər qırxbuğum çıxan vaxtdır. Bu bitki can dərmanıdır. Şuşalılar qırxbuğum yığmağa çıxıblar.

Bu təpədən Şuşanın göz oxşayan mənzərəsi açılırdı. Cıdır düzü, yaşıl meşələr aydın görünürdü. Əsrarəngiz mənzərəni seyr etdikdən sonra enirdik Şuşanın daş döşənmiş küçələrinə. Bir vaxtlar bu küçələrdə kimlər dolaşmayıb? Üzeyir Hacıbəyli, Natəvan xanım, Bülbül, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Xan Şuşinski, Süleyman Ələsgərov... daha kimlər, kimlər.

Burada bir texnikum da var idi–Kitabxanaçılıq Texnikumu. Hər dəfə Şuşaya gələndə bu tədris ocağına baş çəkərdim. Orada Azərbaycan mədəniyyət xadimləri çalışırdılar. Yaxın dostum, Bərdədən olan tələbə yoldaşım Nazim Vəliyev burada müəllim idi.





Onunla Şuşanın tarixi və müasir durumu ilə bağlı maraqlı söhbətlərimiz olardı. İndi həmin texnikumun adı dəyişdirilib, Şuşa Humanitar Kolleci adı ilə Bakıda fəaliyyət göstərir. Xalça Muzeyinin Şuşa filialından da əsər-əlamət qalmayıb. Bir sözlə, vaxtilə gördüyüm Şuşa özgə bir aləm idi.

Erməni vandalları 1992 ci ildən bu şəhərin taleyinə özgə bir “ovqat” qatmışdılar. Evlər, mədəniyyət müəssisələri, məscidlər darmadağın edilmişdi. Ermənistanın baş naziri Paşinyan elə güman edirdi ki, bu şəhər elə ermənilərə qalacaq. Cıdır düzündə Azərbaycan musiqisinə qol açıb oynayanda, bəlkə heç ağlına da gətirmirdi ki, bir gün Şuşanın həqiqi sahibləri qayıdacaq və öz yurdlarına sahib çıxacaqlar.

İşğaldan əvvəl Şuşa ilə bağlı bütün televiziya verilişlərini izləyirdim. Ulu öndərin Şuşada Molla Pənah Vaqifin məqbərəsinin açılış tədbirinə də televiziya vasitəsilə baxmışdım. Amma Nazim müəllim bu tədbirin canlı şahidi olduğu üçün onun dediklərini xatırladıram: “Heydər Əliyevin Şuşaya gəldiyi maşın Xan qızı bulağının qarşısında dayandı. Sərt yoxuş və şaxtalı hava şəraitində camaat köməkləşib maşını yuxarı çıxardı. Şuşa sakinləri, yerli camaatın köməyilə maşın "Güllü bağ”ın qarşısına gəldi və oradan şəhərin içərisinə doğru – “Meydan bulağı”na tərəf üz tutdu. Havanın sərt olmasına baxmayaraq, tədbirə çoxlu adam gəlmişdi. Camaat evlərdə, eyvanlarda, yolların kənarında dayanaraq onu salamlayırdılar. Ulu öndərin əyləşdiyi maşın şəhərin küçələrindən keçərək Cıdır düzünə gedib çıxdı. Ümummilli lider toplaşanların alqışları altında Molla Pənah Vaqifin məqbərəsinə gəldi, onun açılışını bildirən qırmızı lenti kəsdi. İçəri daxil olub Vaqifin məzarını ziyarət etdi. Məqbərənin qarşısında böyük tədbir keçirildi. Yadımdadır ki, həmin tədbirdə şair və yazıçılardan Süleyman Rüstəm, Mirzə İbrahimov, Bəxtiyar Vahabzadə, Məmməd Araz, Cabir Novruz, Nəbi Xəzri, Söhrab Tahir, Qabil, Fikrət Sadıq, Xəlil Rza, Anar, Elçin, Nəriman Həsənzadə, mədəniyyət və incəsənət xadimləri Süleyman Ələsgərov, Niyazi, Zeynəb Xanlarova, Lütfiyar İmanov, Arif Babayev, Teymur Mustafayev, Ədalət Nəsibov, Amaliya Pənahova, Lətif Kərimov, Əlabbas Qədirov ... iştirak edirdilər”.

İndi Şuşa azad nəfəs alır. Öz taleyinin sahibinə çevrilib. Bu, hər bir azərbaycanlı üçün qürurverici faktdır.

Təsadüfi deyil ki, müharibə günlərində Azərbaycan Prezidenti İlham Əliyevin xarici mediaya verdiyi müsahibələrinin birindən belə bir məqamı xatırlayıram: “Paşinyan Şuşada, Cıdır düzündə sərxoş halda rəqs edəndə özünə bu gün baş verənlər barəsində hökm imzalamışdı”.

Bəli, Şuşa işğaldan azad olundu. Prezident İlham Əliyev işğaldan azad edilmiş Şuşada bir neçə dəfə olub. Martın 16-da Şuşa şəhərinə birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə səfər edən Prezident İlham Əliyev çıxışında son dəfə buraya yanvar ayında gəldiklərini, Natəvanın, Üzeyir Hacıbəylinin və Bülbülün büstlərini Şuşaya qaytardıqlarını qeyd etdi. Şuşadakı yenidənqurma və bərpa işlərinə toxunan dövlət başçısı məscidlərin bərpası ilə bağlı artıq müvafiq göstərişlərin verildiyini bildirdi. Budur, artıq Şuşa yenidən qurulur, tarixi abidələr, mədəniyyət müəssisələri bərba edilir.

Budəfəki səfərində dövlət başçımız Bülbülün ev muzeyinin bərpadan sonrakı açılış mərasimində iştirak etmiş, Üzeyir Hacıbəylinin ev muzeyinin bərpası vəziyyəti ilə tanış olmuşdur. Məscidlərin bərpası işləri davam etdirilir. Şuşadakı Qazançı kilsəsinin təmirinə başlanılması, əslində, Azərbaycan tolerantlığının nümunəsidir.

“Mənfur düşmən gəlib bizim torpağımızı zəbt edib, insanları qovub, tarixi abidələrimizi dağıdıb, söküb, vandallıq edib, barbarlıq edib”—deyə, dövlət başçısı bildirib.

Eyni zamanda, Prezident ermənilərin törətdikləri vəhşiliklərə toxunaraq onların bu coğrafiyaya gələrək yerli əhaliyə qarşı xəyanət etdiyini pislədi. Qeyd etdi ki, dünya tarixində buna oxşar vəhşilik, bəlkə də, olmamışdır. Gələsən, başqasının torpağında yaşayasan, sonra fürsətdən istifadə edib buradan yerli əhalini qovasan, öldürəsən, yandırasan, soyqırımı törədəsən. Sonra da o xalq ki, sənə qucaq açıb, səni qəbul edib, sənə burada yaşamağa imkan verib, onun tarixi abidəsini bax, bu günə qoyasan. Vəhşilik. Mən deyəndə ki, sanki vəhşi qəbilə keçib buradan, bax, bu mənzərəni nəzərdə tuturam.

Doğrudan da, gözəl mənzərəsi, təbiəti olan şəhəri belə bərbad günə salmaq vəhşilikdir. Eyni zamanda, dövlət başçısının dediyi kimi, Azərbaycan Şuşanı nəinki respublikamızın, ümumilikdə, dünyanın ən gözəl şəhərlərindən, mədəni mərkəzlərindən birinə çevirəcək.

***M.MÜKƏRRƏMOĞLU,***
***“Xalq qəzeti”***